# SPORTSMAN

PARIS 2024

№ 152 / 2024 / 10 manat
www.sportsman.az
Jurnal 2004-cü ildən nəşr olunur




AZART
GROUP

OLİMPİYA
MÜKAFATÇILARIMIZI
TƏBRİK EDİRİK!


Təbiətin gücü ilə
sağlam qal!
YENİ
SİRAB
1950
QAZSIZ
YENİ
SİRAB
1950
QAZSIZ
Olimpiya mükafatçılarımızı
təbrik edirik!
SİRAB®
1950

# Offissa dizayn



# OLİMPİYA MÜKAFATÇILARIMIZI TƏBRİK EDİRİK!

(+994) 12 525 41 52
(+994) 55 208 97 82

Nərimanov rayonu,
Aşıq Molla Cümə 46b

salon@offissa.com

www.offissa.com

offissa.dizayn

Offissa Dizayn

Offissa Dizayn

Onlayn Kataloq

AGF

AZƏRBAYCAN GİMNASTİKA
FEDERASİYASI

# *OLİMPİYA*
# *MÜKAFATÇILARIMIZI*
# *TƏBRİK EDİRİK!*

**AZƏRBAYCAN GÜLƏŞ FEDERASİYASI**

# *OLİMPİYA MÜKAFATÇILARIMIZI TƏBRİK EDİRİK!*

DÜNYA MEBELİ BİR ÜNVANDA,
BİR MƏKANDA!

BİZİM EV
MEBEL ŞƏHƏRİ

BAKI-SUMQAYIT ŞOSSESİ
7-Cİ KM / RİYAD TİCARƏT MƏRKƏZİ
*5115

www.bems.az

# BU SAYIMIZDA






XXXIII YAY OLİMPİYA OYUNLARI — səh.6

PARİS-2024-ün MEDALLARI — səh.12







"AZƏRBAYCAN OLİMPİYA EVİ"NDƏ GÖRÜŞ — səh.16

32 DÜNYA, 125 OLİMPİYA REKORDU VƏ TARİXƏ DÜŞƏNLƏR — səh.34







PREZİDENT İLHAM ƏLİYEVLƏ GÖRÜŞ — səh.38

"LOS-ANCELES-2028-DƏ 2 QIZIL MEDAL HƏDDİNİ KEÇƏCƏYİK" — səh.44







AZƏRBAYCAN OLİMPİYA OYUNLARINDA — səh.48

"BARSELONA"NI ARZULAYAN GƏNC QAPIÇI — səh.54



**SPORTSMAN**

**Baş redaktor:**
Rəşad Qəmərşahoğlu
*əməkdar jurnalist*
*idman ustası*

Ünvan: Bakı, Fətəli Xan Xoyski 10,
Tofiq Bəhramov adına
Respublika Stadionu
Telefon: 012 511 23 45

e-mail: sportsmagazine@mail.ru
www.sportsman.az

Jurnal Azərbaycan Respublikasının
Ədliyyə Nazirliyində qeydiyyatdan
keçmişdir. №1164

Müəlliflərlə redaksiyanın mövqeyi
uyğun gəlməyə bilər.
Reklamlarda gedən mətnlərə görə
jurnal məsuliyyət daşımır.

Jurnalda "AZƏRTAC" DİA-nin və
İdman.biz saytının materiallarından
istifadə edilib.


***Üz səhifədə:***

Prezident İlham Əliyev
"Paris-2024" Olimpiadasının qalibləri
Hidayət Heydərov və
Zelim Kotsoyev ilə

# XXXIII
# YAY OLİMPİYA OYUNLARI

**İyul ayının 26-dan, avqust ayının 11-dək planetin bütün idmansevərlərinin diqqəti Fransaya yönəlib. Məhz bu tarixlərdə planetin ən qədim və mötəbər yarışı sayılan XXXIII Yay Olimpiya Oyunları keçirilib. Yarışlar Parisdə və Fransanın digər 16 şəhərində öz qaliblərini seçib.**



Tədbir, Olimpiya Oyunları tarixində ilk dəfə olaraq stadiondan kənarda - Sena çayının ətrafında baş tutub. Sena çayı boyunca 6 kilometrlik marşrutda 12 bədii səhnə, Fransanın irsi, Paris, şəhərin abidələri və marşrut boyunca körpüləri nümayiş olunub.



Mərasimdə 206 komandadan 10 500 idmançı Parisin mərkəzindən qayıqlarla Sena çayı boyunca üzüb. Açılışı təxminən 300 000 tamaşaçı izləyib. Bundan başqa tədbir şəhər sakinləri və qonaqlar üçün nəhəng ekranlarda yayımlanıb.

Yekunda Selin Dionun ifasında Edit Piafın "Sevgidə himn" mahnısının müşayiəti ilə Teddi Riner və Mari-Jo Perak tərəfindən Olimpiya məşəli yandırılıb.



Azərbaycan nümayəndə heyəti Paris-2024 Yay Olimpiya Oyunlarının açılış mərasimindəki paradda iştirak edib. Paraddan 16-cı keçən komandamızın bayraqdarı cüdoçu Gültac Məmmədəliyeva və boksçu Məhəmməd Abdullayev, şef de-missionu isə Elnur Məmmədov olub.

Azərbaycan millisi Fransada 48 idmançı ilə təmsil olunub. Yığma 15 idman növü üzrə 17 proqramda çıxış edib.

8-ci Olimpiya Oyunlarına qatılan millimiz Paris-2024-ü 7 medalla başa vurub. İdmançılarımz 2 qızıl, 2 gümüş və 3 bürünc medulla 30-cu yerdə qərarlaşıblar.





Qızıl medalları komandamızın aktivinə cüdoçular Hidayət Heydərovla (73 kq) Zelim Kotsoyev (100 kq), gümüş medalları taekvondoçu Qaşım Maqomedovla (58 kq) boksçu Alfonso Dominqes (92 kq), bürünc medalları isə yunan-Roma güləşçisi Həsrət Cəfərov (67 kq) və sərbəst güləşçilər Giorgi Meşvildişvili (125 kq) ilə Maqomedxan Maqomedov (97 kq) yazdırıb.

Bu, Azərbaycan yığmasının Olimpiadalar tarixində ikinci nəticəsidir. Yalnız London-2012-də daha yüksək nəticələr əldə olunub. Böyük Britaniya paytaxtında da indiki kimi 2 qızıl və 2 gümüş qazanılıb. Lakin 12 il əvvəl bürünc mükafatların sayı 5 olub.

İndi isə daha ətraflı...






# PARİS-2024

## XXXIII YAY OLİMPİYA OYUNLARININ MEDALLARI




**Paris-2024 Olimpiya medalının diametri 85 millimetr, qalınlığı 9,2 millimetrdir.**

Medalların dizaynı Beynəlxalq Olimpiya Komitəsi ilə razılaşdırılıb.

Lakin budəfəki olimpiya medallarını başqalarından fərqləndirən bir xüsusiyyət də var. Medalların hər birinin üzərinə Eyfel qülləsinin bərpası zamanı dəyişdirilmiş metal parçaları bərkidiləcək. Bu metal parçası metropol Fransanın xəritədəki təsvirinə uyğun olaraq, altıbucaqlı şəklindədir.

Medalların kütləsinə gəlincə, qızıl medal 529 qram, gümüş medal 525 qram, bürünc isə 455 qramdır.

Qiymətlər də bir-birindən kəskin fərqlənir. Bürünc medalın maya dəyəri 10 manatdan azdır. Gümüş medal Fransanın vergi ödəyicilərinə 868 manata başa gəlib. 529 qramlıq qızıl medalın maya dəyəri isə bugünkü kursla təxminən 1640 manatdır.

Bir vacib məqamı da qeyd etmək yerinə düşər. Bürünc medal qırmızı latundan tökülür. Onun hazırlanması asan və ucuz başa gəlir. Gümüş medal 920 əyarlı metaldan tökülür və üzərində zərgərlər işləyir. Ən nüfuzlu və bahalı olan qızıl medal isə 6 qram xalis qızıl və 523 qram gümüşdən ibarət xəlitədən hazırlanır.

Qızıl və gümüş medalların tərkibini Beynəlxalq Olimpiya Komitəsi müəyyən edir. Qurum bu zaman maliyyə məsələlərini də ciddi nəzərə alır. İdmançılar xalis qızıldan hazırlanmış medalı sonuncu dəfə 1912-ci ildə əldə ediblər. Əgər Paris Olimpiadasının ən dəyərli medalı xalis qızıldan hazırlansaydı, bu günə olan kursla onun maya dəyəri 70 min manatı ötərdi.


Azerbaijan
Judo



Medal xəbərini olimpiadanın ilk günlərində yaşadıq. İyul ayının 29-u Azərbaycan cüdoçusu Hidayət Heydərov "Paris-2024" XXXIII Yay Olimpiya Oyunlarında qızıl medal qazanaraq bütün Azərbaycan xalqını sevindirdi.

Olimpiadada mübarizəyə səkkizdəbir final mərhələsindən qoşulan cüdoçumuz birinci görüşdə İsrail idmançısı Tohar Butbulu, dörddəbir finalda isə kanadalı Artur Margelidonu ipponla məğlub edib. O, yarımfinalda kosovolu Akil Qyakovaya qalib gəlib.

73 kiloqram çəki dərəcəsində mübarizə aparan idmançımız həlledici qarşılaşmada isə fransalı Con Benjamin Qaba ilə üz-üzə gəlib. Rəqibinə qızıl xal bölümündə ipponla qalib gələn cüdoçumuz, Olimpiya çempionu adını qazanıb və "Paris-2024"də millimizin aktivinə ilk medalı yazdırıb. Bununla da Hidayət Heydərov bu il həm Avropa, həm dünya, həm də Olimpiya çempionu adını qazanmaqla Azərbaycan idmanının tarixinə düşüb.





# “AZƏRBAYCAN OLİMPİYA EVİ”NDƏ GÖRÜŞ



***İyulun 31-də XXXIII Yay Olimpiya Oyunları çərçivəsində Parisdə fəaliyyət göstərən “Azərbaycan Olimpiya Evi”ndə ölkəmizi sevənlər və idmançılarımızı dəstəkləyən müxtəlif xalqların, beynəlxalq təşkilatların nümayəndələri ilə Azərbaycan idmançılarının görüşü keçirilib.***



Azərbaycanın gənclər və idman naziri Fərid Qayıbov, Azərbaycan Cüdo Federasiyasının Prezidenti, rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev, idman nazirinin müavini Mariana Vasileva, Azərbaycan Milli Olimpiya Komitəsinin (MOK) baş katibi Azər Əliyev, MOK-un vitse-prezidenti Çingiz Hüseynzadə, UNESCO yanında daimi nümayəndə Elman Abdullayev, Olimpiya və dünya çempionları, bir çox beynəlxalq təşkilatın, müxtəlif ölkələrin rəsmi nümayəndələri, "Paris-2024" Oyunlarında ölkəmizi təmsil edən idmançılar və onların məşqçiləri, yerli ictimaiyyətin və Azərbaycan diasporunun nümayəndələri, jurnalistlər tədbirdə iştirak ediblər.

Tədbir iştirakçıları Olimpiya Oyunlarının qızıl medalını qazanmış Hidayət Heydərov diqqət mərkəzində idi. Qonaqlar çempionla söhbət edib xatirə şəkli çəkdirirdilər.






itv



İdmançılarımızla görüşə gəlmiş Marselen Dali (Marcellin Dally) beynəlxalq təşkilatın rəsmisi olsa da, tədbirdə məhz Azərbaycanın dostu kimi iştirak etdiyini bildirib. Dali idmançılarımıza yeni qələbələr arzulayıb.

Tədbir çərçivəsində "Azərbaycan Olimpiya Evi"nin qonaqlarına ölkəmizin Olimpiya tarixi, mədəniyyəti, eləcə də Olimpiya Oyunlarında iştirak edən idmançılarımızdan bəhs edən nəşrlər nümayiş etdirilib və iştirakçılara hədiyyə olunub.



Qonaqlar, həmçinin Azərbaycan Olimpiya evində quraşdırılmış monitorda Olimpiadanın 3x3 basketbol yarışlarında Azərbaycan-İspaniya oyununu birlikdə izləyiblər.

Tədbirin bədii hissəsində müğənni Mərdan Kazımov və qrupu milli musiqi nümunələrimizi təqdim edib. Tədbir iştirakçıları musiqi qrupu ilə birlikdə "Yaşa Azərbaycan!" mahnısını ifa ediblər. Olimpiya və Avropa çempionlarımızın birlikdə səsləndirdiyi "Biz çempionuq" (We are champions) mahnısı alqışlarla qarşılanıb.



Növbəti gün sevincimiz birə-iki artdı. Cüdoçumuz Zelim Kotsoyev də “Paris-2024” XXXIII Yay Olimpiya Oyunlarında qızıl medal qazanaraq, komandamızın aktivinə 2-ci qızıl medalı əlavə etdi.

Olimpiadada mübarizəyə səkkizdəbir final mərhələsindən başlayan cüdoçumuz birinci görüşdə polşalı Pyotr Kuçera ilə qarşılaşıb. Rəqibinə ipponla qalib gələn Avropa və dünya çempionumuz adını dörddəbir finala yazdırıb. Bu mərhələdə İsrail təmsilçisi Peter Palçiki vaza-ari xalı ilə məğlub edən Z.Kotsoyev yarımfinala vəsiqə qazanıb. İdmançımız yarımfinalda özbəkistanlı Muzaffarbek Turoboyevə də vaza-ari ilə qalib gələrək finala yüksəlib.

100 kiloqram çəki dərəcəsində mübarizə aparan Avropa və dünya çempionumuz qızıl medal uğrunda qarşılaşmada gürcüstanlı İlya Sulamanidze ilə üz-üzə gəlib. Rəqibinə ipponla qalib gələn idmançımız Olimpiya çempionu olub.


PARIS 2024


AZE



Avqustun 8-i Azərbaycan komandası Fransanın paytaxtı Parisdə keçirilən Yay Olimpiya Oyunlarında növbəti medalı rəsmiləşdirdi. Taekvondoçu Qaşım Maqomedov (58 kiloqram) yalnız finalda uduzaraq fəxri kürsünün ikinci pilləsinə qalxdı. Amma 24 yaşlı idmançı Olimpiadada təkcə gümüş mükafat deyil, həm də minlərlə insanın sevgisini və rəğbətini qazandı.




Mübarizəyə 1/8 finaldan başlayan taekvondoçumuz ilk görüşündə irlandiyalı Cek Uolleyə qalib gəldi. Ardınca isə ispaniyalı Adrian Visenteni mübarizədən kənarlaşdıran Qaşım yarımfinalda Vito Akvilaya rəqib oldu. İtaliyalı taekvondoçu da idmançımızın finala gedən yolunu kəsə bilmədi. Nəticədə taekvondoçumuz karyerası ərzində ilk dəfə qatıldığı Olimpiya Oyunlarında həlledici görüşə vəsiqə əldə etməklə kifayət qədər ciddi uğura imza atdı.


PARIS 2024


AZE
PARIS
2024




Onu finalda Cənubi koreyalı Park Taejunla qarşılaşma gözləyirdi. Maqomedovun finaladək keçirdiyi döyüşlər və bir neçə ay öncə beynəlxalq turnirdə məhz bu rəqibi məğlub etməsi onun qızıl medal qazanacağına dair ümidləri haqlı olaraq artırırdı. Lakin görüşün əvvəlində ayağından ciddi zədə alan taekvondoçumuz istədiyi kimi mübarizə apara bilmədi.



Bununla belə, əsl əzmkarlıq sərgiləyən Azərbaycan idmançısı təslim olmaq fikrində deyildi. Bir neçə dəfə həkimlərin müdaxiləsinə ehtiyac duyan Maqomedov, hər dəfə ayağa qalxıb rəqibə layiqli müqavimət göstərməyə çalışırdı. Amma ağır zədə Qaşıma bundan artığını etməyə imkan vermədi. O, ikinci hissədə döyüşü davam etdirə bilmədi və hakimlərin qərarı ilə məğlub elan edildi. Düzdür, Qaşım Maqomedov Paris Olimpiadasında qızıl medal qazana bilmədi. Amma bütün dünyaya Azərbaycan idmançısının iradəsini və mübarizliyini nümayiş etdirdi.



Final döyüşü ilə bağlı bir məqamı da qeyd etmək yerinə düşər. Cənubi koreyalı Park Taeçjun Qaşım Maqomedovla görüşdə idman prinsiplərini kobud şəkildə pozdu. O, ağrıdan ayaq üstə dayana bilməyən taekvondoçumuza yerə yıxılarkən bir neçə zərbə endirdi. Təbii ki, Park Taeçjunun bu hərəkəti cavabsız qalmadı. Arenaya toplaşan minlərlə azarkeş koreyalı idmançını fitə basdı. Finalda uduzan Azərbaycan taekvondoçusu isə ayaqüstə alqışlandı ki, bu da onun üçün Olimpiya çempionluğundan daha dəyərlidir.



Taekvondoçumuzun əzmkarlığından yazan dünya idman nəşrləri onun gümüş medalının elə qızıla bərabər olduğunu xüsusilə qeyd edirdilər.










JAFAROV
AZE



Bu gün daha bir idmançımız medal qazanaraq azarkeşləri sevindirdi. Mübarizəyə 1/8 finaldan başlayan yunan-Roma güləşçimiz Həsrət Cəfərov ilk görüşündə misirli Mohamed Elsayedə, 1/4 finalda moldovalı Valentin Petiçə qalib gəlib. O, yarımfinalda Ukrayna idmançısı ilə üz-üzə gəlib. Görüşdə əslən azərbaycanlı olan Ukrayna təmsilçisi Pərviz Nəsibov qalib olduğuna görə Həsrət bürünc medal uğrunda qüvvəsini sınayıb. 67 kiloqram çəki dərəcəsində mübarizə aparan pəhləvanımız qırğızıstanlı Amantur İsmayılovla qarşılaşıb. Rəqibini 8:0 hesabı ilə məğlub edən H.Cəfərov Olimpiadada 3-cü yeri tutub.

Bu, Azərbaycan güləşçilərinin "Paris-2024" Yay Olimpiya Oyunlarında qazandığı ilk medalı, komandamızın isə 4-cü medalı idi.












AZƏRBAYCAN


AZE





Avqust ayının 9-u sərbəst güləşçimiz Giorgi Meşvildişvili “Paris-2024” Yay Olimpiya Oyunlarında 1/4 final görüşünü keçirib.

125 kiloqram çəki dərəcəsində çıxış edən idmançı bu raundda monqolustanlı Muktur Laqvagerellə üz-üzə gəlib. Rəqibini “tuş”la (tam üstünlük) məğlub edən güləşçimiz yarımfinala yüksəlib. İdmançımız finala gedən yolda gürcüstanlı Geno Petriaşvili ilə qarşılaşıb. Rəqibinə uduzan təmsilçimiz bürünc medal uğrunda görüşdə qüvvəsini sınayıb. Polşalı Robert Baranla üz-üzə gələn pəhləvanımız rəqibini 9:3 hesabı ilə məğlub edərək Olimpiya üçüncüsü olub.






UZB




UZB
AZE




AZE



Avqust ayının 10-u boksçumuz Alfonso Dominqes "Paris-2024" Yay Olimpiya Oyunlarında final görüşünü keçirib.

Mübarizəyə 1/8 finaldan başlayan Alfonso Dominqes ilk görüşündə kubalı Xulio Sezar la Krusa qalib gəlib. Ardınca qazaxıstanlı Aybek Oralbayı üstələyən Paris Olimpiadasının bürünc mükafatçısı yarımfinalda İspaniya təmsilçisi Reyes Planı mübarizədən kənarlaşdırıb.

92 kiloqram çəki dərəcəsində çıxış edən idmançı həlledici qarşılaşmada özbəkistanlı Lazizbek Mullojonovla üz-üzə gəlib. Rəqibinə məğlub olan Alfonso Olimpiya Oyunlarının gümüş medalını qazanıb.








AZERBAIJAN
OLYMPIC TEAM




AZE


2024

Növbəti gün, “Paris-2024” Yay Olimpiya Oyunlarının sonuncu günündə Azərbaycanın sərbəst güləşçisi Maqomedxan Maqomedov bürünc medal görüşünə çıxıb.

97 kiloqram çəki dərəcəsində mübarizə aparan idmançı üçüncü yer uğrunda qarşılaşmada Ukrayna təmsilçisi Murazi Mçelidze ilə üzüzə gəlib.

Rəqibini məğlub edən güləşçimiz fəxri kürsünün üçüncü pilləsinə qalxıb.

Bununla da Azərbaycan Paris Olimpiadasının 7-ci medalını qazanıb.






# 32 DÜNYA, 125 OLİMPİYA REKORDU VƏ TARİXƏ DÜŞƏNLƏR

**Parisdə başa çatan Olimpiadada 32 dünya, 125 olimpiya rekordu qeydə alınıb. Ən parlaq nailiyyətləri diqqətinizə çatdırırıq.**



Lüksemburqu təmsil edən və komandanın bayraqdarı olan 61 yaşlı Ni Xialian, Paris Olimpiadasında stolüstü tennis turnirində iştirak etməklə tarixə düşüb. Yarışda reytinqin lideri və turnirin gələcək finalçısı çinli Sun Yinşaya məğlub olan "raketkalı nənə" yarışın ikinci raunduna yüksəlməyi də bacarıb. Qazandığı qələbələrilə uşaq kimi sevinən Ni çox canlı və çevikdi. Öz oyun üslübu ilə azarkeşlərin ürəyinə yol tapan bu qocaman idmançı alovlu alqışlarla qarşılanıb.

Lüksemburqlu həyat yoldaşı ilə 1980-ci illərin sonlarında evlənən Ni, Avropaya köçərək vətəndaşlığını dəyişib. Ümumiyyətlə isə çinli qadın yüksək səviyyəli yarışlarda 1970-ci ilin sonundan çıxış edir. 1983-cü ildə dünya çempionu olan raketka ustası 38 il sonra Dünya Kubokunun bürünc medalını qazanmaqla da yeni rekorda imza atmışdı.

Hollandiyanı təmsil edən Sifan Həsən, 15 yaşında Efiopiya qaçqınlığından 31 yaşında üçqat Olimpiya çempionluğuna qədər uzun bir yol qət edib. Parisdə Həsən 42 km 125 metrlik məsafəni 2:22.55 qaçaraq Olimpiya rekordunu yrniləyib. Bundan əlavə Həsən tarixdə dörd məsafə yarışında - 1500, 5000, 10,000 və marafonda Olimpiya Oyunlarda medal qazanan ilk idmançıdır.







Kubalı yunan-Roma güləşçisi Mixain Lopez unikal nailiyyət əldə edib. O, tarixdə ardıcıl beş Olimpiadada beş qızıl medal qazanan ilk güləşçi olub. 42 yaşlı güləşçi Pekin 2008, London 2012, Rio 2016 və Tokio 2020 Oyunlarının da qalibidir. Final matçından sonra 5 qat dünya və 5 qat Olimpiya çempionu olan Lopez, güləş ayaqqabılarını çıxararaq döşəyin ortasına qoyub və bununla da karyerasını başa vurduğunu elan edib.

Lopez Olimpiya Oyunlarında yeganə məğlubiyyətini Afina Olimpiadasının dörddəbir finalında rusiyalı Həsən Baroyevdən alıb. Lakin 3 il sonra 2007-ci il dünya çempionatının finalında və daha sonra 2008-ci il Pekin Olimpiadasının finalında rusiyalı rəqibini məğlub edərək öz çəkisinin qalibi olduğunu sübut edib.




20 yaşlı bolqarıstanlı ağır atlet Karlos Nasarın qızıl medalı həqiqətən də çətin oldu. 89 kq-a qədər çəki dərəcəsində Nassar təkanla qaldırmada (224 kq) və klassik kombinasiyada 404 kq-da (180+224) dünya və olimpiya rekordları müəyyən edib. Bu nəticə ilə rəqiblərini xeyli geridə qoyan idmançının çempion olacağına heç kimin şübhəsi olmayıb. Aydınlıq üçün müqayisə edin: gümüş medalın sahibi kolumbiyalı Yeison Lopez 390 kq, bürünc medalın sahibi italyan Antonio Pizzolato isə 384 kq çəki qaldırıb.

Atasının livanlı, anasının isə bolqar əsilli olmasına baxmayaraq Nassar Parisdə anadan olub və məhz bu şəhərdə ilk dəfə Olimpiya çempionluğunu qazanıb.

Fransalı Teddi Riner olimpiadalar tarixinə düşüb. O, 5 qat Olimpiya çempionu tituluna yiyələnən ilk cüdoçu olub. Onun çıxış etdiyi Fransa yığması Oyunların finalında Yaponiyaya 4:3 hesabı ilə qalib gəlib. Teddi fərdi yarışlarda +100 kq çəki dərəcəsində də fəxri kürsünün ən yüksək pilləsində yer alıb.

Qeyd edək ki, 35 yaşlı fransalı London-2012, Rio-2016 və Tokio-2020 Olimpiadalarının da qalib olub.






Pnevmatik tapança atıcısı gürcü Nino Salukvadze tarix yazıb. Kanadalı atıcı İan Milların rekordunu təkrarlayan 55 yaşlı idmançı onuncu Olimpiya Oyunlarında iştirak edib.

İlk qızıl medalını SSRİ yığmasının tərkibində debüt edən Nino 1988-ci il Seul Olimpiadasında qazanıb. O vaxtdan bəri Salukvadze kolleksiyasına gümüş və bürünc medallar da əlavə edərək, heç bir Olimpiadanı qaçırmayıb.

Parisdə o, qaliblər sırasına düşə bilməyib. Salukvadze Tokiodan sonra idmandan getdiyini artıq elan etsə də, sonradan fikrini dəyişib. Kim bilir, bəlkə Nino 2028-ci il Oyunlarına vəsiqə qazanaraq yeni record da vuracaq…



Disk atma yarışında dünya rekordu qeydə alınmasada unikal bir hadisə baş verib. 21 yaşlı litvalı Mikolas Alekna atası - ikiqat Olimpiya çempionu Virgiliusun olimpiya rekordunu yeniləyib.

2004-cü il Afina Olimpiadasında ata 69,89 metr nəticə ilə Olimpiya rekordu göstərmişdi. 20 il sonra oğul Alekna ikinci cəhdində diski 69,97 m-ə ataraq Olimpiya rekordunu üstələdi. Lakin bu, qələbəyə zəmanət vermədi. Təəssüf ki, Mikolas Alekna yalnız ikinci oldu və "ailə rekordu" yamaykalı Rocer Ston tərəfindən qırıldı. Onun diski tam olaraq 70 m uçdu.

Yarış bitdikdən sonra bir az kədərli Alekna atasının rekordu haqqında düşünmədiyini etiraf etdi - məqsədi yalnız medal qazanmaq idi. Amma idmançı dörd ildən sonra mütləq qızıl qazanacağına və heç kimin qıra bilməyəcəyi rekorda imza atacağına söz verdi.

Bununla belə, Mikolas Alekna atletikanın bu növündə artıq dünya rekorduna sahibdir. Aprel ayında ABŞ-da keçirilən yarışda litvalı 74,35 m nəticə ilə 1986-cı ildən bəri dayanan alman Yurqent Şultun dünya rekordunu qirmağı bacarıb.

Fransalı üzgüçü Leon Marşan Paris-2024 Olimpiadasında 4-cü dəfə fəxri kürsünün ən yüksık pilləsində yer alıb. O, 200 m məsafəyə qarışıq üsulla üzmədə 1-ci yeri tutub.

22 yaşlı idmançı bundan əvvəl 200 m məsafələrə brass və batterflyay, eləcə də 400 m məsafəyə qarışıq üsulla üzmədə qızıl medal qazanıb. Marşan hər 4 yarışda həm də yeni Olimpiya rekordunu müəyyənləşdirib.

Qeyd edək ki, Leon həm də 1.54,06 nəticə ilə amerikalı Maykl Felpsin 16 illk rekordunu yeniləyib.





Amerikalı gimnast Simona Baylz 7-ci dəfə Olimpiya çempionu olub. O, Paris-2024-də 3-cü dəfə fəxri kürsünün ən yüksək pilləsində yer alıb. Baylz dayaqlı tullanmada 15,300 xal toplayaraq 1-ci pilləni tutub. Simona Rebeka Andrade (Braziliya) və həmyerlisi Ceyd Kerini arxada qoyub. Bundan əvvəli 27 yaşlı gimnast Parisdə komanda yarışlarında və fərdi çoxnüvçülükdə qızıl medal qazanıb.

Qeyd edək ki, Baylz karyerası ərzində olimpiadalarda 10, dünya çempionatlarında isə 30 medala yiyələnib.




Paris-2024 Yay Olimpiya Oyunlarının basketbol turniri rekordla əlamətdar olub. Bunu FİBA-nın mətbuat xidməti açıqlayıb.

Kişi və qadın komandaların turnirini 1 milyon 78 min 319 tamaşaçı izləyib. Bu, Olimpiadalar tarixinin ən yüksək göstəricisidir.

Atlanta-1996-da bu rəqəm 1 milyon 68 min 32-yə bərabər olub. Fransa paytaxtında daha az – 52 matç keçirilib və orta tamaşaçı sayı 20 min 737-yə bərabər olub. Kişi komandaların görüşlərini orta hesabla 21 min 711, qadınları isə 19 min 763 seyrçi izləyib.

Qeyd edək ki, qadın basketbolçuların Avropada keçirilən oyunları üçün yeni tamaşaçı rekordu da qeydə alınıb. Avstraliya və Fransanın matçını (79:72) 27 min 193 tamaşaçı seyr edib.





Azərbaycan Respublikasının Prezidenti, Milli Olimpiya Komitəsinin Prezidenti İlham Əliyev avqustun 14-də XXXIII Paris Yay Olimpiya Oyunlarında medal qazanmış Azərbaycan idmançılarını və onların məşqçilərini qəbul edib:

- İlk növbədə, idmançılarımızı gözəl qələbələr münasibətilə təbrik edirəm. Siz Yay Olimpiya Oyunlarında ölkəmizi ləyaqətlə təmsil etmisiniz, Azərbaycan Bayrağını ucaltmısınız, bütün xalqımızı sevindirmisiniz. Sizi həm təbrik edirəm, həm də sizə öz təşəkkürümü bildirmək istəyirəm.

Olimpiya Oyunları bütün digər idman yarışları arasında xüsusi yer tutan bir yarışdır, dörd ildən bir keçirilən idman bayramıdır və əlbəttə ki, hər bir idmançı, hər bir ölkə bu Oyunlara xüsusilə hazırlaşır. Bizim Olimpiya Oyunlarındakı uğurlarımız əvvəlki illərdə də, son Oyunlarda da göstərir ki, Azərbaycan güclü idman dövlətidir. Təsadüfi deyil ki, biz bu Oyunlarda dünyanın ən güclü 30 ölkəsinin arasında yer almışıq - 2 qızıl, 2 gümüş və 3 bürünc medal, hesab edirəm ki, çox yaxşı nəticədir. İdmançıları, onların məşqçilərini bu gözəl hadisə münasibətilə bir daha təbrik etmək istəyirəm.

Onu da bildirmək istəyirəm ki, müsəlman ölkələri arasında Azərbaycan üçüncü yerdə qərarlaşıb. Nəzərə alsaq ki, İslam Əməkdaşlıq Təşkilatında 57 üzv mövcuddur, hesab edirəm, bu, çox gözəl və tarixi nəticədir. Bütövlükdə komandamızın çıxışına qiymət verərək mən hesab edirəm ki, bizim idmançılarımız ən yüksək qiymətə layiq olmalıdır.

Xüsusilə qızıl medalçılarımızı – Hidayəti və Zelimi ürəkdən təbrik etmək istəyirəm. Onlar Olimpiya Oyunlarının ilk günlərində bu qələbə sevincini xalqımıza bəxş etmişlər. Onların həm peşəkarlığı, həm idmandakı uğurları və eyni zamanda, davranış qaydaları, əlbəttə ki, hər birimizi ürəkdən sevindirdi. Onlar uzun illər ərzində öz çəki dərəcələrində liderliyi qoruyublar və bu liderliyi Olimpiya Oyunlarında bir daha təsdiq etmişlər. Onların məşqçilərini təbrik edirəm, Cüdo Federasiyasının rəhbərliyini təbrik etmək istəyirəm. Federasiyada işlər, təlim-məşq prosesi düzgün qurulanda, ab-hava gözəl olanda nəticə də əlbəttə ki, göz qabağındadır.

Daha çox medal qazana bilərdik, bəli, qazana bilərdik. Amma bu idmandır, idmanda qələbə də olur, məğlubiyyət də olur. Əsas odur bu Oyunlar bir daha göstərdi ki, Azərbaycanda idmanın inkişafı ardıcıl surətdə gedir. Onu da bildirməliyəm ki, bizim idmançılarımız beş idman növündə medallar qazanmışlar: cüdo, boks, taekvondo, yunan-Roma güləşi, sərbəst güləş üzrə. Yəni, bu da onu göstərir ki, Azərbaycanda idmanın bir çox növləri inkişaf edir.

Əlbəttə ki, indi müəyyən istirahətdən sonra yeni hazırlıq prosesinə start veriləcək, həm Avropa, həm dünya çempionatlarına hazırlıq işləri gedəcək. Əlbəttə ki, biz növbəti Olimpiya Oyunlarına da indidən hazırlaşmalıyıq. Bir neçə idman növündə nəsillərin dəyişməsi prosesi gedir. Ona görə təbii ki, biz növbəti Olimpiya Oyunlarına bu prizmadan yanaşmalıyıq və xüsusilə uşaq-yeni-



yetmə idmanına bundan sonra da diqqət göstərilməlidir. Nəzərə alsaq ki, idmanla məşğul olmaq üçün indi ölkəmizin hər bir yerində gözəl şərait var. İdmana rəhbərlik edən qurumlar arasında koordinasiya işləri düzgün qurulub, federasiyalar, klublar uğurla fəaliyyət göstərir. Nəzərə alsaq ki, hər bir Olimpiya Oyunlarından sonra, xüsusilə ölkəmiz üçün uğurlu Oyunlardan sonra idman bölmələrinə uşaqların, yeniyetmələrin axını müşahidə olunur, mən əminəm, növbəti Olimpiya Oyunlarına hazırlıq prosesi də ardıcıl aparılacaq.

Əlbəttə, tam əminəm ki, həm cüdo, həm digər idman növləri ilə məşğul olmaq istəyən uşaqlarımızın sayı çox olacaq və bunu arzulayıram. Uzun illər ərzində idmanın kütləviliyi ilə bağlı dediyim sözlər və verdiyim tapşırıqlar bir məqsədi güdür ki, fiziki, mənəvi cəhətdən sağlam, Vətənə bağlı, vətənpərvər və peşəkar gənc nəsil yetişsin. İdmançılarımızın uğurlu çıxışları bunu bir daha göstərdi ki, biz gənc nəslimizlə haqlı olaraq fəxr edə bilərik.

Əlbəttə ki, bu nailiyyətlər, eyni zamanda, medallar qazanmış idmançıların məsuliyyətini də artırır. Mən şadam ki, bizim idmançılarımız həm yarışlarda, eyni zamanda, həyatda nümunəvi davranış qaydaları göstərirlər. Yəni, siz gənclər üçün nümunəsiniz. Gənclər sizə baxıb sizin kimi olmaq istəyəcəklər və bu qələbənin vacib olan tərəflərindən biri məhz bundan ibarətdir.

Bir daha sizi ürəkdən təbrik etmək və sizə yeni qələbələr, uğurlar arzulamaq istəyirəm.





***Olimpiya çempionu, cüdoçu Hidayət Heydərov:***

- Cənab Prezident, bu gün bizi buraya dəvət etdiyiniz üçün çox sağ olun. Mən çox xoşbəxtəm ki, dünya çempionu olanda Siz məni təbrik etdiniz, mənə dəstək oldunuz. Olimpiya çempionluğunda ilk olaraq Siz mənə zəng edib təbrik etdiniz. Düzdür, özü burada olmasa da, mən bizim Olimpiya çempionumuz Elnur Məmmədliyə "Çox sağ ol" demək istəyirəm. Biz bir-birimizə söz vermişdik ki, Avropa, dünya və Olimpiya çempionu olacağıq və olduq. İnşallah, bundan sonra da Los-Anceles Olimpiadasına birlikdə hazırlaşıb orada da öz qələbəmi göstərəcəyəm.

Mən fəxr edirəm ki, Fransanın Paris şəhərində Olimpiya çempionu oldum, bizim Bayrağımız qalxdı və Himnimiz səsləndirildi. Mən bununla çox fəxr edirəm, çox sağ olun, minnətdaram Sizə.











Dövlətimizin başçısı Parisdə keçirilən Yay Olimpiya Oyunlarında idmançılarımızın zəhməti, istedadı, peşəkarlığı sayəsində qazandıqları qələbənin bütün xalqımıza sevinc bəxş etdiyini dedi.

Azərbaycan Prezidenti qeyd etdi ki, xüsusilə Olimpiya Oyunlarında qazanılan qələbə idmanda da, məişətdə də, həyatda da idmançının üzərinə böyük məsuliyyət qoyur. İdmançılarımızın yalnız məharətləri ilə deyil, həm də yarış zamanı layiqli davranışları ilə seçildiklərini vurğulayan dövlətimizin başçısı dedi ki, bu, onların yüksək mənəvi keyfiyyətlərini bütün dünyaya nümayiş etdirdi. Prezident İlham Əliyev uzun illər Olimpiya Oyunlarında, dünya və Avropa çempionatlarında ölkəmizin adını ucaldan veteran idmançılara minnətdarlığını ifadə etdi.

Dövlətimizin başçısı Azərbaycan idmançılarına və məşqçilərinə yeni qələbələr və uğurlar arzuladı.

Daha sonra dövlətimizin başçısı XXXIII Paris Yay Olimpiya Oyunlarında qazanılan yüksək nailiyyətlərə və Azərbaycan idmanının inkişafında xidmətlərinə görə təltif olunan idmançılara və onların məşqçilərinə ordenləri təqdim etdi.













**Çingiz Hüseynzadə**

***Milli Olimpiya Komitəsinin vitse-prezidenti***

***Azərbaycan atletləri Paris-2024 Yay Olimpiya Oyunlarında uğurla iştirak etdi. Ümumilikdə 7 medal qazanan komandamızı Olimpiadadan sonra Azərbaycan Prezidenti, Milli Olimpiya Komitəsinin prezidenti cənab İlham Əliyev qəbul etdi.***

Komandamızın Paris-2024-dəki çıxışı, ölkə başçısı ilə görüşdə danışılan məsələlər və verilən tapşırıqlar barədə Milli Olimpiya Komitəsinin vitse-prezidenti Çingiz Hüseynzadə ilə həmsöhbət olduq.




# "LOS-ANCELES-2028-DƏ 2 QIZIL MEDAL HƏDDİNİ KEÇƏCƏYİK"

**- Çingiz müəllim, Yay Olimpiya Oyunlarından sonra cənab Prezident İlham Əliyev idmançıları qəbul etdi. Həmin qəbulda Siz də iştirak edirdiniz. Görüş necə keçdi?**

- Görüş çox gözəl keçdi. Bildiyiniz kimi, hər Olimpiadadan sonra cənab Prezident Olimpiya Oyunlarında uğur qazanan idmançılarla görüşür. Bu dəfə də istisna olmadı. Medal qazanan bütün idmançılar və qızıl medal əldə edən idmançıların məşqçiləri bu görüşdə iştirak etdilər. Cənab Prezident görüş zamanı öz fikirlərini söylədi və ən əsası odur ki, özü şəxsən idmançılara və məşqçilərə ordenləri təqdim etdi. Ümumiyyətlə, bir çox hallarda ordenlər Prezident tərəfindən şəxsən təqdim olunmur. Amma bu dəfə cənab Prezident ordenləri özü şəxsən təqdim etdi. Bu da idmançıların çox böyük həm həyəcanına, həm də sevincinə səbəb oldu. O, idmançılarla bir-bir görüşdü, öz fikirlərini onlara söylədi. Hətta Tərlan müəllimə ordeni təqdim edəndə onunla söhbət etdi və bundan sonra da ona Hidayət kimi idmançılar yetişdirməyi arzuladı. Elxan Məmmədova da ordeni təqdim edəndə dedi ki, sən özün çempionsan və özün kimi çempionlar yetişdirirsən. Yəni görüş zamanı idmançılar və məşqçilərlə bu cür səmimi söhbətlər oldu. Bundan başqa birgə şəkil çəkdirildi. Mən hesab edirəm ki, bu, olimpiyaçılarımızın həyatında vacib və unudulmaz günlərdən biri oldu.

**- Ümumilikdə, ölkə başçısı idmançılarımızın çıxışlarını necə dəyərləndirdi?**

- Ölkə başçısı idmançılarımızın çıxışlarını yüksək dəyərləndirdi. Çünki, həqiqətən də Azərbaycan komandası, ilk dəfə idi ki, komanda hesabında ilk otuzluğa daxil oldu. Cənab Prezident də çıxışında bunu qeyd etdi. O, bildirdi ki, komandamız bu nəticə ilə islam ölkələri arasında üçüncü yeri tutub. Ümumiyyətlə, bu nəticənin idman və Olimpiya tariximizdə ən yaxşı nəticələrdən biri olduğunu qeyd etdi. Çünki iki qızıl medalın qazanılması hər Olimpiadada olmur. Hesab edirəm ki, cənab Prezident komandamızın çıxışından razı idi. Bir məsələni də qeyd etdi ki, medalların sayı və nəticələr bundan da çox ola bilərdi. Amma Olimpiadada hər bir nəticə bizim üçün məqbuldur.

**- Cənab Prezident gələcək il üçün komandanın qarşısına hansı öhdəlikləri qoydu?**

- Cənab Prezident əvvəlki görüşlərdə də qeyd etdiyi kimi, bu dəfə də bildirdi ki, bu Olimpiada başa çatdı və günü sabahdan yeni Olimpiya Oyunlarının hazırlıqlarına başlamaq lazımdır. Bilirsiniz ki, bu, dördillik prosesdir. Bu proses ərzində bir çox dəyişikliklər baş verir. İdmançıların dəyişilməsi olur, yeni idmançılar




hazırlanır, müxtəlif hadisələr baş verir və zədələr olur. Dörd il çox böyük bir dövrdür. Bu dörd ildə hazırlıq məsələlərini planlaşdırmaq da o qədər asan bir iş deyil. Cənab Prezident ümidvar olduğunu bildirdi ki, növbəti dörd ildə komandamız yaxşı hazırlaşacaq və Olimpiadada uğurla çıxış edəcək.

**- Bəs Milli Olimpiya Komitəsinin vitse-prezidenti olaraq Paris-2024-ü necə dəyərləndirirsiz?**

- Deyərdim ki, Paris-2024-ə müxtəlif səpkidən yanaşmaq olar. Xüsusilə onu qeyd etmək istərdim ki, bu oyunlar indiyə qədər iştirak etdiyim ən yaxşı olimpiadalardan biri deyil. Burada ilk gündən müəyyən problemlər var idi. Sonuncu günə qədər də bu problemlər davam etdi. Sena çayının çirkli olmasından, idmançıların xəstələnməsindən tutmuş, nəqliyyat problemlərinin mövcud olmasını qeyd edə bilərəm. Həmçinin marafon və velosiped yarışlarının keçirildiyi dövrdə şəhər, necə deyərlər, iflic olurdu, idman yarışlarına gedib çatmaq üçün çətinliklər yaranırdı. Bu, Paris-2024-ün Təşkilat Komitəsinin fəaliyyəti ilə əlaqədar idi. Bundan başqa insanlar bu oyunlarda çox fəal iştirak edirdi. Deməkolar ki, heç bir idman yarışında arenada boş yer görmədik. Mənim ən çox diqqətimi çəkən o oldu ki, fransız xalqı bütün idmançıları çox müsbət qarşılayırdı. Hansı ölkəni təmsil etməsindən asılı olmayaraq bütün idmançıları alqışlayırdılar. İnsanlar şəhərdə çox mülayim idilər. İdmançılara, komandalara qarşı müsbət yanaşırdılar. Bir sözlə, burada əks münasibətlik var idi. Təşkilat Komitəsi və açılış mərasimi zamanı Azərbaycan komandası haqqında deyilən siyasi fikirlər məsələnin bir tərəfi, xalq və azarkeşlər isə məsələnin tamam başqa tərəfi idi. Bu, bir daha məndə elə bir təəssürat yaratdı ki, pis xalq olmur. Pis hakimiyyət və ya təşkilatçılıq cəhətdən mənfi hallar olur. Xalqlar özü isə öz aralarında bütün məsələləri həll edə bilir. Qeyd etmək istərdim ki, Paris Olimpiadasında müxtəlif yeniliklər tətbiq olundu. Deməzdim ki, bu yeniliklərin hamısı uğurlu oldu. Amma hər halda tətbiq edildi. İstər açılış, istər bağlanış mərasimləri ancaq televiziya tamaşaçılarına yönəldilmiş tamaşalar idi. İdmançıların və yaxud stadiona toplaşan azarkeşlərin bir növ zövqünə uyğun deyildi. Amma texniki cəhətdən mükəmməl idi. Televiziya qarşısında əyləşənlər bunun möhtəşəmliyini hiss edirdilər. Lakin açılış mərasimində iştirak edənlər onu hiss etmirdilər. Birincisi, açılış zamanı yağış hər şeyi bərbad etdi. Bağlanışda da əsas konsert proqramı televiziyada göstərilirdi. Yəni belə müxtəlif məsələlər var idi. Bütün dünya mətbuatı bu hadisələri birmənalı qarşılamadı.



**- Açılış mərasimindən söz düşmüşkən, Azərbaycana qarşı işlədilən siyasi ifadələrdən**

**sonra Milli Olimpiya Komitəsi və Gənclər və İdman Nazirliyi Beynəlxalq Olimpiya Komitəsinə etiraz məktubu ünvanladı. Beynəlxalq Olimpiya Komitəsi tərəfindən üzr məktubu gəldi. Bəs Təşkilat Komitəsindən, Fransa tərəfindən eyni addım atıldımı?**

- Olimpiya Oyunlarına əsas məsuliyyəti Beynəlxalq Olimpiya Komitəsi daşıyır. Bizim üçün Beynəlxalq Olimpiya Komitəsinin üzr istəməsi çox vacib idi və biz buna nail ola bildik. Mən və Gənclər və İdman naziri Fərid Qayıbov bu məktuba qol çəkdik və yolladıq. Məktub göndəriləndən bir gün sonra demək olar ki, cavab gəldi. Təşkilat Komitəsi də bir söz deyə bilməzdi. Çünki bu, Təşkilat Komitəsinin səhvi deyildi. Bu, televiziya kanalının aparıcısının etdiyi bir nöqsan idi. Amma Təşkilat Komitəsi özü Beynəlxalq Olimpiya Komitəsinə tabedir və bu quruma hesabat verir. Bu səbəbdən də Beynəlxalq Olimpiya Komitəsinin üzr istəməsi Təşkilat Komitəsinin üzr istəməsindən də böyükdür.

**- Paris-2024-də 7 medal qazandıq. Bu, 7 medaldan başqa, Azərbaycan komandasında müsbət məqamlar nələr idi?**

- Müsbət məqamlar çox idi. Cənab Prezident özü də bunu qeyd etdi. İlk növbədə qeyd edə bilərəm ki, Azərbaycan komandası özünü çox intizamlı komanda kimi göstərdi. Yarışlara, idman növlərinə gələndə bədii gimnastika üzrə qrup hərəkətləri komandamızı qeyd etmək istərdim. Bu yarışda əsas məqsəd finala düşmək idi ki, bu da nailiyyət hesab olunurdu. Gimnastlarımız bu işin öhdəsindən gəldilər və finala vəsiqə qazandılar. Finalda da çox gözəl çıxış edərək beşinci yerə nail oldular. Halbuki, onlar bundan daha artıq yerlərə layiq idilər. İlk hərəkətdə gimnastlarımızın xalını bir az azaltmışdılar. Bununla bağlı etiraz da etmişdik. Ümumilikdə isə beşinci yer Olimpiya Oyunlarında böyük nəticədir. Bu, sevindirici haldır. Qadınlardan



ibarət 3x3 basketbol komandamızın mübarizəsini da qeyd edərdim. Onların Olimpiya Oyunlarına lisenziya qazanmasının özü bir fantastik hadisə idi. Basketbol komandamız bütün qarşılaşmalarda çox gözəl oyun nümayiş etdirdi. ABŞ və Çin kimi güclü komandalara qalib gəldilər. Azərbaycan komandasına məğlub olan ABŞ komandası Olimpiya Oyunlarında üçüncü yeri tutdu. Hesab edirəm ki, komandamızın fransızları geridə qoyaraq, yeddinci yerə çıxması və hər bir oyunu çox yüksək səviyyədə keçirməsi Azərbaycan idmanı üçün böyük nailiyyət və sevindirici haldır. Eyni zamanda ayrı-ayrı fərdi idmançıların çıxışları da uğurlu sayıla bilər. Mən xüsusilə atletikanın çəkicatma növündə çıxış edən Anna Skidanın nəticəsini qeyd etmək istərdim. O, dördüncü dəfədir ki, Olimpiadada çıxış edirdi və ilk dəfə finala vəsiqə qazandı. İlk olaraq "on ikiliyə" və "səkkizliyə" düşən Anna yekunda yeddinci yeri tutdu. Olimpiya Oyunlarında bu da böyük nəticədir. Bilirsiniz ki, atletikada medal qazanmaq olduqca çətindir. Eyni zamanda ilk dəfə Olimpiya Oyunlarında iştirak edən kamandan oxatma üzrə xanım idmançımız Yaylagül Ramazanova ilk seçmə mərhələdə çinli idmançıya qalib gəldi. Halbuki çinli idmançı yarışın əsas favoritlərindən biri hesab olunurdu. Bu uğurun özü də bizim üçün çox gözəl nəticədir. Təbii ki, uğursuzluqlar da oldu. Nəticə gözlədiyimiz idmançıların çıxışları zəif oldu. Nəticə gözləmədiyimiz idmançılar isə uğur qazandılar. Bu, Olimpiya ruhuna uyğun bir haldır. Olimpiya Oyunlarında həmişə yeni adlar parlayır. Bu dəfə də belə oldu.

**- İlin sonuna dörd ay qalıb. Paralimpiya Oyunlarını çıxmaq şərti ilə demək olar ki, bütün böyük yarışlar başa çatıb. Bu, dörd ay ərzində Milli Olimpiya Komitəsinin qarşısına qoyduğu işlər nələrdən ibarət olacaq?**

- Milli Olimpiya Komitəsinin əsas vəzifələrindən biri olimpizmin, Olimpiya ideallarının təbliğatıdır. Milli Olimpiya Komitəsi təkcə idman yarışları ilə deyil, ümumiyyətlə, idmanın və Olimpiya Hərəkatının təbliğatı məsələsi ilə məşğul olur. İndi Avropa Milli Olimpiya Komitələri və digər ölkələrin Milli Olimpiya Komitələri oyunları təhlil edirlər. Təkcə Azərbaycan idmanı üçün deyil, dünyada idmanın inkişafı baxımından bu təhlillər aparılmalıdır. Sentyabr ayında Avropa Olimpiya Komitələrinin iclasları olacaq. Biz də bu iclaslarda iştirak edəcək, müəyyən məsələlər ətrafında fikirlərimizi bildirəcəyik. Azərbaycanda idmanın və Olimpiya Hərəkatının təbliği çox vacibdir. Bizim əsas vəzifələrimizdən biri əldə olunan nəticələri geniş şəkildə təhlil edib, ictimaiyyətə çatdırmaqdır. Yeni işlər çoxdur. Yarışlar olmasa da,

Azərbaycanda idmanın, olimpizmin, Olimpiya ideallarının təbliği ilə bağlı bizim bir çox planlarımız var ki, onları həyata keçirəcəyik.

**- Tokio-2020-dən sonra əksər federasiyalarda dəyişikliklər oldu. Nəticələr öz bəhrəsini verdi. Bəs Paris-2024-dən sonra Los-Anceles-2028-ə qədər struktur dəyişiklikləri və ya ümidləri doğrultmayan idmançılarla bağlı federasiyalarda dəyişiklik gözlənilirmi?**

- Dəyişikliklər əlbəttə ki, gözlənilir. Amma mən başqa cür deyərdim. Ümidləri doğrultmayan idmançılar deməzdim. Hətta cənab Prezident öz çıxışında qeyd etdi ki, nəsildəyişmə prosesləri gedir. Bu proses mütləq olmalıdır. Bu, müxtəlif idman növlərində fərqli olur. Tokio Olimpiadasında medal qazanan güləşçilərimiz bu Olimpiya Oyunlarında mükafatsız qaldı. Bu da məhz həmin prosesla bağlıdır. Yenilənmə getməlidir, yeni insanlar gəlməlidir. Bu, istər idmançılar, istər məşqçilər, istərsə də federasiya rəsmiləri arasında olmalıdır. Paris-2024 yenilənmələrdən sonra bəzi federasiyaların ilk Olimpiadası idi. Hesab edirəm ki, bu Olimpiadadan sonra onlar öz işlərini necə quracaqlarını daha yaxşı dərk edəcək və işə daha məsuliyyətlə yanaşacaqlar.





**- Bir neçə gün sonra Paralimpiya Oyunları başlayacaq. Tokio-2020-də tarix yazan paralimpiyaçılarımızdan Fransada gözləntilər nədir?**

- Əlbəttə ki, Tokio-2020-dəki uğurlar Fransada təkrar oluna bilməz. Birincisi, ona görə ki, budəfəki Paralimpiya Oyunlarına lisenziya qazanan idmançılarımızın sayı azdır. İkincisi, isə bütün dünyada paralimpiya hərəkatında ciddi dəyişikliklər baş verib. Əvvəllər paralimpiya ilə bağlı kriteryalara daha yumuşaq yanaşılırdısa, indi bu məsələyə ciddi nəzarət edilir. Məsələn, əvvəl atletimiz Lamiyə Vəliyeva başqa kateqoriyada çıxış edirdisə, bu dəfə tamam başqa kateqoriyada mübarizə aparacaq. Bu kateqoriyada isə idmançılar daha güclüdürlər. Belə bu hal eləcə də başqa idmançılarımıza da aiddir. Mən burada mənfi hecnə görmürəm. Bəlkə də bu, daha yaxşıdır, Paris-2024 Yay Paralimpiya Oyunları daha ədalətli şəkildə keçiriləcək.

**- Paralimpiya Oyunlarından sonra yəqin ki, idman ilinə yekun vurmaq olar. Növbəti Los-Anceles-2028 Yay Olimpiya və Paralimpiya Oyunlarının hazırlıqlarına nə vaxtdan start verməyi planlaşdırırsınız?**

- Biz planlaşdırmırıq, artıq bu hazırlıqlara başlamışıq. Milli Olimpiya Komitəsi olaraq idmançıların hazırlığı ilə məşğul olmuruq. İdmançılar federasiyalarda, idman klublarında hazırlanırlar. Biz bu işin yolunda bütün inzibati məsələləri həll etməklə məşğuluq. Deyərdim ki, Paris-2024 Yay Olimpiya Oyunları başlamamışdan əvvəl biz artıq Los-Anceles-2028 haqqında düşünürdük. Bununla bağlı proses gedir. Cənab Prezident də qeyd etdi ki, Los-Anceles-2028-ə hazırlıqlara başlamaq lazımdır. Düşünürəm ki, Los-Anceles-2028 Yay Olimpiya Oyunları bir qədər fərqli olacaq. Bunun da əsas səbəblərindən biri odur ki, 2025-ci ildə Beynəlxalq Olimpiya Komitəsinə yeni prezident seçiləcək. Biz onun kim olduğunu bilmirik. Amma bildiyiniz kimi, şəxsiyyətin rolundan çox şey asılıdır. Yeni prezident gələcək və onun yeni tələbləri olacaq, Olimpiya Hərəkatında müəyyən dəyişikliklər baş verəcək. Biz də bu dəyişikliklərə uyğun olaraq öz fəaliyyətimizi quracağıq. Ümid edirəm ki, Los-Anceles-2028-də biz artıq iki qızıl medal həddini keçməyə nail ola biləcəyik.

# AZƏRBAYCAN OLİMPİYA OYUNLARINDA

***Olimpiya oyunları dörd ildən bir keçirilən ən böyük beynəlxalq kompleks idman yarışlarıdır. Olimpiya oyunlarında qazanılan medal idmanda ən yüksək nailiyyətlərdən biri hesab olunur.***

Müasir Olimpiya oyunları XIX əsrin sonlarında fransız ictimai xadimi Pyer de Kubertenin təşəbbüsü ilə keçirilməyə başlayıb. Yay Olimpiya oyunları, dünya müharibələrinə təsadüf edən illər istisna olmaqla, 1896-cı ildən bəri dörd ildən bir keçirilir. 1924-cü ildə Qış Olimpiya oyunları da təsis edilib və əvvəlcə Yay Olimpiya oyunları ilə eyni ildə keçirilib. Lakin 1994-cü ildən başlayaraq Qış Olimpiya oyunları yay olimpiadasından iki il sonra təşkil edilir.

Olimpiya oyunlarından bir neçə gün sonra həmin idman qurğularında fiziki məhdudiyyətli insanlar üçün Paralimpiya oyunları da keçirilir.

Azərbaycan idmançıları Yay Olimpiya oyunlarında 1952-ci ildən çıxış edirlər. Onlar ölkəmizi 1988-ci ilə kimi SSRİ-nin, 1992-ci ildə isə “Birləşmiş komanda”nın tərkibində təmsil ediblər.


Rəşid Məmmədbəyov

Azərbaycan idmanı üçün ilk olan Helsinki-1952 olimpiadasında 5 idmançımız - dörd güləşçi və bir yüngül atlet yarışıb. Onlar vətənə bir gümüş və bir bürünc medalla qayıdıblar. Sərbəst güləşçi **Rəşid Məmmədbəyovun** 57 kq çəki dərəcəsində finalda yapon idmançısına uduzaraq layiq görüldüyü gümüş mükafat Azərbaycan idmanının ilk olimpiya medalıdır.


Viktor Mineyev

Tokio-1964 olimpiadasından başlayaraq da müstəqillik dövrünədək – SSRİ-nin qatılmadığı Los Anceles-1984 istisna olmaqla – hər Olimpiya oyunlarında Azərbaycan idmançıları fəxri kürsünün ən yüksək pilləsinə qalxa biliblər. Tokio-1964-də beşnövçü **Viktor Mineyev** komanda yarışlarında qızıl medal qazanıb. Bu, Azərbaycanı təmsil edən idmançıların Olimpiya oyunlarında ilk çempionluğu kimi tarixə düşüb. Sərbəst güləşdə dünya çempionu **Aydın İbrahimov**un Tokioda 57 kq çəki dərəcəsində üçüncü yeri tutaraq bürünc medala sahib çıxdığını da xatırladaq.


Aydın İbrahimov


İnna Rıskal

Mexiko-1968 olimpiadasında Azərbaycanın tanınmış voleybolçuları - **İnna Rıskal və Vera Lantratova**nın da heyətində


Vera Lantratova

çıxış etdiyi SSRİ-nin qadınlardan ibarət voleybol yığması finalda yaponları məğlubiyyətə uğradaraq olimpiya çempionu titulunu qazanıb.

Münhen-1972 olimpiadasında dörd il əvvəlki uğurunu təkrarlayan İnna Rıskalın hesabında ümumilikdə, ikisi qızıl və ikisi gümüş olmaqla, dörd olimpiya medalı var.

# TARİX


Rəfiqə Şabanova

Monreal-1976 Olimpiya Oyunlarının proqramına ilk dəfə qadınlar arasında həndbol yarışı da daxil edilib. Həmin olimpiadada çempion olmuş SSRİ həndbol yığmasının heyətində həmyerlilərimiz **Rəfiqə Şabanova** və **Lüdmila Şubina** da yer alıb.


Lüdmila Şubina

Moskva-1980 olimpiadasında da SSRİ-nin qadınlardan ibarət həndbol yığması birinci yeri tutub. Bu dəfə qızıl medalçılar arasında Azərbaycanın digər idmançısı - **Larisa Savkina** olub.


Larisa Savkina

Seul-1988 olimpiadasında Azərbaycan idmançılarından qılıncoynadan/rapiraçılar **İlqar Məmmədov** və **Boris Koretski**, həmçinin futbolçu


İlqar Məmmədov


Boris Koretski

**İqor Ponomaryov** SSRİ komandasının heyətində qızıl medal qazanıblar. Yeri gəlmişkən, Atalanta-1996-da Rusiya yığması ilə də qızıl mükafata sahib çıxan İlqar Məmmədov iki qat olimpiya çempionudur.


İqor Ponomaryov

Barselona-1992 olimpiadası ərəfəsində dünyanın siyasi xəritəsi dəyişir. 1991-ci ilin sonunda SSRİ-nin dövlət quruluşu dağılır və onun tərkibinə daxil olan müttəfiq respublikalar müstəqillik qazanırlar. Suverenlik əldə edən ölkələr öz milli olimpiya komitələrini yaratsalar da, 1992-ci ildə Beynəlxalq Olimpiya Komitəsi onlardan çoxunu hələ üzv qəbul etmədiyindən yeni dövlətlərdən əksəriyyətinin Olimpiya oyunlarında sərbəst iştirak etmək hüququ olmur. Buna görə də vaxtilə SSRİ-nin tərkibindəki bəzi respublikaların təmsilçiləri Olimpiya oyunlarında “Birləşmiş komanda” kimi çıxış etməli olurlar.

Amma açılış mərasimində “millətlərin paradı” zamanı 5 idmançıdan ibarət komandamızın stadiondan üçrəngli Azərbaycan


Nazim Hüseynov

bayrağı ilə keçdiyini də qeyd edək.

İdmançılarımız arasında ilk qızıl medalı cüdoçu **Nazim Hüseynov** qazanır. Tarix dünyanın ən mötəbər idman yarışında Azərbaycan bayrağının qalxmasına və himnimizin səslənməsinə şahidlik edir.


Valeri Belenki

Azərbaycan gimnastı **Valeri Belenki** də komanda yarışında olimpiya qızılına sahib çıxır. İdmançımız çoxnövçülük üzrə şəxsi birincilikdə isə bürünc medala layiq görülür.

Atalanta-1996 olimpiadasında artıq müstəqil ölkə kimi çıxış edən Azərbaycan yarışlarda 23 idmançı ilə təmsil olunur.



Namiq Abdullayev

Sərbəst güləşçi **Namiq Abdullayev** 52 kq çəki dərəcəsində finala çıxsa da, həlledici görüşdə xal hesabı ilə məğlub olaraq gümüş medal qazanır.

Sidney-2000 olimpiadasında Azərbaycanın 31 idmançısı yarışır.

**Namiq Abdullayev** dörd il əvvəlki uğursuzluğu unutduraraq bu dəfə sərbəst güləşdə 54



Zemfira Meftahətdinova

kq çəki dərəcəsində, **Zemfira Meftahətdinova** da stend atıcılığında (qadınlar arasında ilk dəfə keçirilir) qızıl medal qazanırlar.




Vüqar Ələkbərov

19 yaşlı boksçu **Vüqar Ələkbərov** isə bürünc medala sahib çıxır.

Afina-2004 olimpiadasında Azərbaycanın 36 idmançısı mübarizə aparır ki, onlardan da **Fərid Mansurov** yunan-Roma güləşində 66 kq çəki dərəcəsində çempion olur.



Fərid Mansurov



Fuad Aslanov



Ağası Məmmədov

Boksçular **Fuad Aslanov** və **Ağası Məmmədov**, həmçinin atıcılar **İradə Aşumova** (özü də 46 yaşında) və ötən olimpiadanın qalibi **Zemfira Meftahətdinova** isə bürünc medal qazanırlar.



İradə Aşumova



Elnur Məmmədli

Pekin-2008 olimpiadasında Azərbaycanın 44 idmançısı yarışır və onlardan da yalnız 20 yaşlı cüdoçu **Elnur Məmmədli** 73 kq çəki dərəcəsində bütün rəqiblərinə qalib gələrək qızıl medalla təltif olunur.



Rövşən Bayramov

**Rövşən Bayramov** yunan-Roma güləşində finalda uduzaraq vətənə gümüş medalla dönür.

İdmançılarımız, dörd il əvvəl Afinada olduğu kimi, bu dəfə də dörd bürünc medal qazanırlar: boksçu **Şahin İmranov**, cüdoçu **Mövlud Mirəliyev**, qadın güləş-



Şahin İmranov


Mövlud Mirəliyev


Mariya Stadnik


Xetaq Qazyumov

çisi **Mariya Stadnik** və sərbəst güləşçi **Xetaq Qazyumov** fəxri kürsünün üçüncü pilləsinə qalxırlar.

London-2012 olimpiadasında 53 idmançı ilə təmsil olunan Azərbaycan Sidney-2000-dəki nailiyyətini təkrarlayaraq hesabına 2 qızıl medal yazdıra bilir və


Toğrul Əsgərov


Şərif Şərifov

ümumi hesabda 32-ci yeri tutur.

Xüsusilə 2 qızıl, 2 gümüş və 3 bürünclük nəticələrə imza atan güləşçilərin uğurlu çıxışını vurğulamaq lazımdır. Onlardan sərbəst güləşçilər **Toğrul Əsgərov** 60 kq və **Şərif Şərifov** 84 kq çəki dərəcələrində bütün rəqiblərinə qalib gələrək çempion olurlar. O vaxt cəmi 19 yaşı olan Toğrul ən gənc azərbaycanlı olimpiya çempionudur.

Yunan-Roma güləşçisi **Rövşən Bayramov** yenə finalda uduzur, qadın güləşçisi Mariya Stadnik də, dörd il əvvəlkindən fərqli olaraq, bu dəfə gümüş medal qazanır.

Bokşçular - 19 yaş 203 gün-


Teymur Məmmədov


Məhəmmədrəsul Məcidov

lüyündə müstəqillik dövründə ən gənc azərbaycanlı olimpiya medalçısı olan **Teymur Məmmədov** və **Məhəmmədrəsul Məcidov**, sərbəst güləşçi **Xetaq Qazyumov**, yunan-Roma güləşçisi **Emin Əhmədov** və qadın güləşçisi **Yuliya Ratkeviç** də bürünc medala sahib çıxırlar.


Emin Əhmədov


Yuliya Ratkeviç

Rio-2016 olimpiadasında 56 idmançımızın əldə etdiyi medal sayı 18 olur ki, bu da Azərbaycan üçün rekord göstəricidir.


Radik İsayev

Taekvondoçu **Radik İsayev** +80 kq çəki dərəcəsində qızıl medal qazanır.

Sərbəst güləşçilər - London-2012-nin qəhrəmanlarından **Toğrul Əsgərov**, həmçinin **Xetaq Qazyumov** (ardıcıl iki bürüncdən sonra bu dəfə gümüş), qadın


Lorenso Sotomayor

güləşçisi **Mariya Stadnik** (ardıcıl ikinci olimpadada finalda məğlubiyyət), boksçu **Lorenso Sotomayor**, kanoeçi **Valentin Demyanenko**, cüdoçular **Rüstəm Orucov** və **Elmar Qasımov** gümüş medalla kifayətlənirlər.


Valentin Demyanenko


Rüstəm Orucov


Elmar Qasımov


Kamran Şahsuvarlı

Bürünc medalçıların sayı isə 9 olur: boksçu **Kamran Şahsuvarlı**, kanoeçi **İnna Osipenko-Radomska**, taekvondoçular **Milad Beigi** və **Patimat Abakarova**, sərbəst güləşçilər **Hacı Əliyev**, **Cəbrayıl Həsənov** və


İnna Osipenko-Radomska


Milad Beigi


Patimat Abakarova


Hacı Əliyev


Cəbrayıl Həsənov

London-2012-nin qaliblərindən **Şərif Şərifov**, yunan-Roma güləşçiləri **Rəsul Çunayev** və


Rəsul Çunayev


Sabah Şəriəti


Nataliya Sinişin

**Sabah Şəriəti** və qadın güləşçisi **Nataliya Sinişin** fəxri kürsünün üçüncü pilləsinə qalxırlar.

Tokio-2020 olimpiadası COVID-19 pandemiyası üzündən 2021-ci ildə keçirilir. Azərbaycanın yarışlara qatılan 44 idmançısından heç biri Yaponiyada qızıl medal qazana bilmir.

Sərbəst güləşçi **Hacı Əliyev** bu dəfə gümüş medala layiq görülür, karateçilər **Rafael Ağayev** və **İrina Zaretska** da finalda məğlub olaraq eyni əyarlı medala sahib çıxırlar.



Rafael Ağayev

Bürünc əldə edənlər isə cüdoçu İrina Kindzerska, boksçu **Loren Alfonso**, yunan-Roma güləşçisi **Rafiq Hüseynov** və qadın güləşçisi **Mariya Stadnik** olur.


İrina Zaretska


İrina Kindzerska


Rafiq Hüseynov

Nəhayət, Paris-2024 olimpiadasında Azərbaycanın 48 idmançısından ikisi – cüdoçular **Hidayət Heydərov** 73 kq və **Zelim Kotsoyev** 100 kq çəki dərəcəsində qızıl medal qazanırlar.

Bu dəfə yalnız finalda uduzan boksçu **Loren Alfonso** kimi taekvondoçu **Qaşım Maqomedov** da gümüş medala sahib çıxır.

Bürünc medalçıların sayı isə üç nəfər olur: yunan-Roma güləşçisi **Həsrət Cəfərov** və sərbəst güləşçilər **Giorgi Meşvildişvili** və **Məhəmmədxan Məhəmmədov**.

Nəticədə Azərbaycan medal cədvəlində 30-cu mövqedə qərarlaşır ki, bu da ölkəmizin olimpiadalar tarixində ən yüksək yeridir.

Ümumi göstəricilərə gəlincə, Namiq Abdullayev və Toğrul Əsgərov hərəyə 1 qızıl və 1 gümüş medalla Azərbaycan təmsilçiləri arasında ən yaxşı nailiyyətə malikdirlər. Zemfira Meftahətdinova və Şərif Şərifovun da hərəyə 1 qızıl və 1 bürüncü var.

Olimpiya medalı sayına görə isə lider Mariya Stadnikdir: yalnız qızıl medala həsrət qalan qadın idmançının hesabında, ikisi gümüş və ikisi də bürünc olmaqla, 4 medal var. Xetaq Qazyumov, biri gümüş və ikisi də bürünc olmaqla, 3 medal qazanıb.

Yeri gəlmişkən, Paris-2024 Mariya Stadnik üçün 5-ci olimpiada olub. O, 2008-ci ildən bəri hər olimpiadada iştirak edib və Azərbaycan idmançıları arasında bu göstəricidə rekordçudur.

Digər qadın idmançımız İradə Aşumovanın hesabında isə 4 olimpiada var. O, Pekin-2008-i buraxmasa idi, rekorda şərik olacaqdı.

***Rasim Mövsümzadə***

***P.S. Paris 2024 Olimpiadasının mükafatçıları ilə daha ətraflı jurnalının əvvəlində tanış ola bilərsiniz.***



# “BARSELONA”NI ARZULAYAN GƏNC QAPIÇI

***Gənc qapıçı Qüdrət Qarayevin ən böyük arzusu İspaniya La Liqasında oynamaqdır, özü də “Barselona”nın qapısını qorumaq istəyir. Amma “Bəs “Real”dan təklif gəlsə?” sualına gülərək “Məcbur gedəcəyəm” deyə cavab verir.***

Bu ilin iyulunda “Kəpəz”lə 3 illik müqavilə bağlayan Qüdrət U-15 komandasında çıxış edəcək.

1959-cu ildə böyük futbola qədəm qoyan “Kəpəz” Azərbaycanın hazırda fəaliyyət göstərən ən qədim klublarından biridir.

1962-ci ildə SSRİ kubokunda Kiyev “Dinamo”suna 2:1 hesabı ilə qalib gəlib 1/4 finala çıxmaqla ilk dəfə adından söz etdirən Gəncə komandası 1968-ci ildə sovet çempionatının güclülər dəstəsində çıxış edib.







1978-ci ildə II liqanın IV zonasında 23-cü yerə yuvarlanmaq, 1986-cı ildə isə II liqa IX zonasının qalibi olmaq kimi eniş-yüksəliş yaşayıb.

Müstəillik dövründə sonuncusu 1999-cu ildə olmaqla üç dəfə Azərbaycan çempionluğunu qazanan "Kəpəz" 2000-ci ildə sonuncu – dördüncü dəfə Azərbaycan kubokuna sahib çıxdıqdan sonra titula həsrət qalıb. Bu müddətdə Premyer Liqada ən yaxşı halda 2015/16 mövsümündə on iştirakçı arasında 5-ci yeri tutub. Arada Birinci diviziona düşüb, hətta bir neçə il fəaliyyətini dayandırıb da.

Sonuncu dəfə 2016-cı ildə avrokuboklarda oynayan Gəncə komandasının azarkeşləri indi "Qarabağ" və digər klublarımızın Avropadakı uğurlarına sevinirlər.

2022/23 mövsümündən Premyer Liqaya qayıdan "Kəpəz" yeni uğurların sorağındadır.



**1959-1963-cü illərdə inşa edilən, 1964-cü ildə istismara verilən Gəncə şəhər stadionu da son illərdə tamaşaçı tribunaları yararsız vəziyyətə düşdüyündən və texniki cəhətdən istismarı mümkün olmadığından fəaliyyəti qismən həyata keçirilirdi.** Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 6 oktyabr tarixli Sərəncamına əsasən, stadionunun yenidən qurulması işlərinin layihələndirilməsi və həyata keçirilməsi üçün Prezidentin ehtiyat fondundan ilkin olaraq bir milyon manat ayrılmışdı. Stadionun layihələndirmə işləri başa çatdırıldıqdan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 9-da Gəncə şəhər stadionunun təməlini qoyub.

Bununla bağlı rəsmi məlumatda bildirilir ki, yenidənqurma işləri çərçivəsində stadionun ərazisi genişləndirilərək 10 hektara çatdırılacaq. UEFA-nın 4-cü kateqoriya standartlarına uyğun inşa ediləcək stadionun tamaşaçı tutumu layihə üzrə 15 min 464 yerlik olacaq. Stadionda VVIP, VIP, SKY-box, media nümayəndələri və fiziki imkanları məhdud tamaşaçılar üçün müvafiq sayda oturacaq sahələri, futbolçular üçün paltardəyişmə, konfrans, tibb, hakimlər, texniki heyət üçün otaqlar və sair zəruri sahələr nəzərdə tutulur. Eyni zamanda, layihəyə əsasən stadionun daxilində bilet satışı, eləcə də müxtəlif ictimai iaşə obyektləri, yerüstü avtodayanacaqlar, nəzarət-buraxılış məntəqələri yaradılacaq. Stadion UEFA tələblərinə uyğun işıqlandırma, səs, yayım, internet, təhlükəsizlik, giriş-çıxış sistemləri ilə təchiz olunacaq. Bir sözlə, stadionun istifadəyə verilməsi istər yerli, istərsə də beynəlxalq yarışların keçirilməsinə hərtərəfli şərait yaradacaq.




**1967-1968-ci illərdə SSRİ-nin əsas yığmasına cəlb olunan mərhum qapıçı Sergey Kramarenko Gəncədə doğulub, futbola da bu şəhərin "Toxucu"/"Dinamo"sunda başlayıb.**

Hüseyn Məhəmmədov isə vaxtilə səkkiz qarşılaşmada "Kəpəz"in oyunçusu kimi Azərbaycan millisinin qapısını qoruyub.

Ötən mövsüm, əsasən, portuqaliyalı qapıçı Igor Rodriguesə güvənən Gəncə təmsilçisi indi də 1 nömrəli formanı onun həmyerlisi Rogerio Santosa həvalə edib. Amma maliyyə cəhətdən imkanları geniş olmayan klub yerli istedadlar axtarışındadır. **Qüdrət Qarayev "Kəpəz"in yeni kəşfi ola biləcəkmi? 10-15 il sonra "Sportsman"in bu sayını vərəqləyərək "Futbolumuzun Qüdrəti" haqqında ilk yazının bizim jurnalda getdiyi ilə öyünə biləcəyikmi?** Bu sualların cavabını zamanın ixtiyarına buraxıb, onunla yaxından tanış olaq.

Qüdrət 2010-cu il fevralın 5-də Goranboy rayonunda anadan olub, boyu 183 sm, çəkisi 71 kq-dır. Atası – karatedə dünya çempionu olmuş Yalçın Qarayev 2022-ci ildə onu futbola yazdırıb, Goranboy Uşaq-Gənclər İdman və Şahmat məktəbində Ceyhun Əhmədov da onda bu idman növünə böyük maraq yaradıb. Gənc məşqçinin 2011-2013-cü illərdə "Kəpəz"in heyətində Premyer Liqada çıxış etdiyini, sonra bir müddət klubun yeniyetmələr komandasını çalışdırdığını da bildirək.



Sonuncu yarışda komandası zəif çıxış edib axırıncı yeri tutsa da, Qüdrət etibarlı oyunu və qurtarışları ilə hamının diqqətini cəlb edib. Hətta Bakıdan da onu yoxlama-baxışa dəvət ediblər. Evlərinə daha yaxın olduğu üçün Gəncəni, "Kəpəz"i seçib.

"Kəpəz"in U-15 komandasının baş məşqçisi İlqar Hüseynov, köməkçisi Rövşən Əhmədov, qapıçıların məşqçisi Anar Sadıqovdur. Qüdrət qapıda daha yaxşı durmağın sirrlərini Vüqar Məmmədovdan da öyrənir. O, uzun müddət "Kəpəz"də çıxış edib, ilk milli çempionatımızın keçirildiyi 1992-ci ildə əsas qapıçı olub. Arada bir mövsüm "Şəmkir"in qapısını qoruyub, məşqçi kimi uzun müddət "Qəbələ"nin müxtəlif komandalarında çalışıb, indi də "Kəpəz"də işləyir.

**Gəncə şəhər stadionunun təməli yeni qoyulsa da, ötən il stadionun ərazisində "Kəpəz" Məşq Mərkəzi və Futbol Akademiyası inşa edilib.**

FIFA və UEFA-nın maliyyə dəstəyi ilə AFFA tərəfindən tikilən bina bütün zəruri avadanlıqlarla təchiz olunub. Gəncəyə səfərimiz zamanı gördük ki, burada əsas komanda üçün otaqlar (16 otaq - 44 nəfərlik), klubun akademiyası üçün otaqlar (8 otaq - 52 nəfərlik), restoran, mətbəx, fitnes, sauna, 4 paltardəyişmə otağı, tibb otaqları, iclas otağı, "Kəpəz" PFK əməkdaşları üçün ofis, inzibati heyət üçün otaqlar, istirahət otağı, çamaşırxana, texniki və xidməti otaqlar var. Stadionun ərazisində həmçinin iki təbii və bir süni örtüklü futbol meydanı salınıb.



*naya bilərlər. Əlbəttə gəlmə futbolçular olmasa, akademiyada rəqabət yaratmaq çətin məsələdir. Akademiyanın normal fəaliyyəti üçün, hesablamalarımıza görə, təxminən 1 milyon manata yaxın vəsait tələb olunur".*

**Atası hər gün Qüdrəti Goranboydan məşqə aparır, gün ərzində gedib-gəlməyə 100 km məsafə qət edirlər. Sentyabrda Gəncəyə köçəcəklər.**

Qüdrət 9-cu sinfə keçir, təhsilini də Gəncə liseyində davam etdirəcək. Ən sevdiyi fənn riyaziyyatdır, ingilis dilini yaxşı öyrənməyi də qarşısına məqsəd qoyub.

Akademiyanın koordinatoru Vasif Vəliyev şahidi olduqlarımızı əlavə məlumatlarla zənginləşdirir: *"Hazırda bu binadan əsas komanda, müəyyən qismindən həm də klubun akademiyası istifadə edir. Akademiyanın nəzdində 18 məşqçi və 200-ə yaxın futbolçu var, fəaliyyət göstərən komandalarımızın sayı 12-dir, o cümlədən biri qızlardan ibarətdir. Onlar AFFA-nın keçirdiyi bütün yaş qrupları üzrə yarışlarda iştirak edirlər. Hələlik şəraitimiz belədir ki, digər şəhər və rayonlardan gələn yeniyetmə oyunçuları qalmaq və qida ilə təmin edə bilmirik. Onlar ancaq öz hesablarına "Kəpəz"də oy-*






İndi boş vaxtlarını, əsasən, qapıçı videolarına baxmaqla keçirir. İspan David De Xea, bizimkilərdən isə Şahruddin Məhəmmədəliyevi bəyənir. Ümumiyyətlə, futbolda kumirləri Lionel Messi və Qurban Qurbanovdur.

"Kəpəz" və "Qarabağ", həmçinin "Barselona" və "Qalatasaray"a azarkeşlik edir. Avro-2024-də Gürcüstan millisinin uğur qazanmasını istəyib: *"Yaxşı futbolçuları var, yaxşı da oynadılar".*

Qüdrət Qarayevi də yaxşı qapıçı kimi Azərbaycan millisinin heyətində Avropa və dünya çempionatlarında görmək arzusu ilə...

***Rasim Mövsümzadə***

AZART

# AZART EXCLUSIVE CAR STYLING

Azərbaycanda lüks sinif avtomobillərin yüksək keyfiyyətli tuningi, restaylı və bərpası.



- TUNİNG İŞLƏRİ
- EHTİYYAT HİSSƏLƏRİ
- RESTAYL - FACELİFT
- İNTERYER DİZAYN
- VİNİL İŞLƏRİ
- KARBON ÜZLƏNMƏ
- SƏS BOĞUCU SİSTEMİN YIĞILMASI
- AUDİO SİSTEM
- DİSKLƏRİN BƏRPASI
- DƏMİRÇİ İŞLƏRİ
- BATIQLARIN BƏRPASI
- RƏNGSAZ-MALYAR
- MÜHƏRRİK İŞLƏRİ
- ÇİLİNGƏR
- ELEKTRİK
- DİAQNOSTİKA
- ADAPTASİYA
- KİMYƏVİ TƏMİZLƏMƏ
- POLİROVKA
- KERAMİKA 9H PRO

Address: AZ1001
Azerbaijan Baku
Faiq Yusifov 71,
(Nərimanov keçmiş Pekin restoranının yanı)

Address: AZ1001
Azerbaijan Baku
Yusif Vəzir Çəmənzəminli 5
(Olimpik Star idman kompleksinin yanı)

azart_tuning
tuningservice.az
www.az-art.az

+99455 855 77 66
+99450 978 55 55

# AZART FK








ÖVLADLARINIZIN SAĞLAM, AKTİV VƏ EYNİ ZAMANDA GÜCLÜ OLMASINI İSTƏYİRSİNİZ? O ZAMAN ONLARI FUTBOL MƏŞQLƏRİNƏ YAZDIRIN!

ƏLAQƏ NÖMRƏSİ : +99455 869 08 08

WWW.AZART-GROUP.COM

AZART.FK

# FILTREX

## Suyunuz şirin gəlsin




Hər növ su təmizləmə sistemləri :
-Əks osmos sistemləri
-Yumuşaldıcı avadanlıqlar
-Mexaniki təmizləmə filtrləri
-Ultrafiltrasiya
-Sənaye və magistral filtrləri
-Kafe və restoranlar üçün filtrlər
-Hovuzların tikintisi və qulluğu

www.filtrex.az info@filtrex.az +994 50 224 61 04

Bioloji Təbabət Klinikası






Göyçay Bioloji Təbabət Klinikası

Masallı Bioloji Təbabət Klinikası



Sumqayıt Bioloji Təbabət Klinikası

# BİOLOJİ TƏBABƏT KLİNİKASI

- (012) 430 89 89
  (050) 430 89 89
- bioloji.tebabet
- biolojitebabetklinikasi
- btk.az
- info@btk.az
- Bakı şəhəri, 3 mkr., S.C. Pişəvəri küç 110
  M.Əcəmi m.st. yaxınlığı




**OLİMPİYA**
**MÜKAFATÇILARIMIZI**
**TƏBRİK EDİRİK!**